# 2007-ci il aprelin 6-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair Anlaşma Memorandumu»nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il aprelin 6-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair Anlaşma Memorandumu» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 28 avqust 2007-ci il***

***№ 2361***

***Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda dərc edilmişdir (31 avqust 2007-ci il, № 8, maddə 836) («VneshExpertService» LLC).***

---

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz Təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair

## Anlaşma Memorandumu

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti (bundan sonra «Tərəflər» adlandırılacaq)

Hər iki dövlət arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsini istəyərək,

Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınması üçün Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasına texniki yardım göstərmək məqsədilə

aşağıdakılar barədə razılığa gəldilər;

## *Məqsəd*

Noyabr 2006-cı il tarixdə Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) təşəbbüsü ilə «Cənubi Qafqazda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınması»na dair layihənin həyata keçirilməsi mümkünlüyünü müəyyən etmək məqsədilə Layihə Qiymətləndirilmə Missiyası həyata keçirilmişdir. Missiya GTZ-nin dəstəyi ilə Bernard Amler və Suzan Small tərəfindən həyata keçirilmişdir.

Məqsəd tərəfdaşlarla razılaşdırılmalı olan layihənin nəticədə ümumi aspektlərini, xüsusilə aşağıda göstərilən strategiya və konsepsiyanı özündə dolğun əks etdirməkdən ibarətdir:

- lokal və milli səviyyədə fövqəladə halların xəbərdar edilməsi və risklərin idarə olunması
- aparıcı icra orqanlarının müəyyən edilməsi
- icra orqanlarının imkanlarının təhlili
- layihənin konsepsiyasının və strategiyasının işlənib hazırlanması

## *Qiymətləndirməyə dair qısa məlumat*

GTZ-nin dəstəyi ilə 2005-ci ilin avqust ayında Erkən Xəbərdarlıq üzrə Katiblik tərəfindən hazırlanmış layihə ilə bağlı təkliflər 2005-ci ilin oktyabr ayında Bonn şəhərində təşkil olunmuş erkən xəbərdarlıq mövzusunda keçirilən Üçüncü Beynəlxalq Konfransda «Yerli tədbirlərdən regional əməkdaşlığa doğru: Cənubi Qafqazda İcma Yönümlü Erkən Xəbərdarlıq Sistemi» adı ilə təqdim edilmişdir.

Layihə təklifi bəyənilərək qəbul edilmiş və yerli qurumların iştirakını göstərmək və aydınlaşdırmaq məqsədi ilə diqqətəlayiq layihələr kataloquna daxil edilmişdir.

Almaniya Hökuməti ikitərəfli əməkdaşlığın inkişafına dəstək vermək məqsədilə Qafqaz Təşəbbüsü çərçivəsində bu layihəni ilkin olaraq qəbul etmiş və sözügedən layihə daha sonra həyata keçirilməsi nəzərdə tutulan «Yerli demokratiyanın və mülki cəmiyyətin gücləndirilməsi» ilə bağlı layihəyə dəstək olacaqdır.

Azərbaycan-Almaniya Hökumətlərarası danışıqlar zamanı (Bakı, 16.08.2006) bu layihə Qafqaz regional təşəbbüsünün tərkib hissəsi kimi qeyd olunmuş və Azərbaycan Hökuməti tərəfindən razılıqla qarşılanaraq dəstəklənmişdir. (rəsmi protokol səh.13).

Hazırki missiya çərçivəsində Azərbaycan Respublikasını təmsil edən Fövqəladə Hallar Nazirliyi fəlakət risklərinin tənzimlənməsi üzrə ikitərəfli əməkdaşlıq layihəsinə marağını açıq şəkildə nümayiş etdirmişdir. Yeni yaranmış Nazirlik üçün (fevral 2006) bu

təşəbbüslər risklərin tənzimlənməsi üzrə və gələcəkdə risklərin qiymətləndirilməsi üçün arzuolunandır.

## *2. Əldə edilmiş Məlumatlar və Layihə Konsepsiyası*

### *2.1. Layihənin əsaslandırılması*

Cənubi Qafqaz regionu əksər təbii fəlakətlərə, o cümlədən zəlzələ, daşqın, torpaq sürüşməsi, qaya və qar uçqunları, sel, ildırım, dolu, vulkan püskürmələri və meşə yanğınlarına meyllidir. Bu region Alp-Himalay seysmik zolağının ən fəal hissələrindən birini təşkil edir.

Ənənəvi olaraq, keçmiş Sovet İttifaqı ölkələrində riskli hadisələrin elmi araşdırmaları üzrə inkişaf etmiş sistemi mövcud idi. Erkən xəbərdarlıq sistemləri riskli hadisələrin təyini və proqnozunun texnoloji aləti kimi düşünülmüş və həyəcan siqnalını vermək üçün vasitə kimi başa düşülürdü. Keçmişdə riskli hadisələrin araşdırmaları ilə məşğul olan qurumlar öz fəaliyyətlərini vətəndaşların mərkəzləşdirilmiş müdafiəsinə yönəltmişlər. Sovetlərin vaxtında bu qurumların əsas tapşırığı əhalini texnogen fəlakətlərdən və müharibələrin mümkün nəticələrindən (atom hücumu) qorumaq idi. Erkən xəbərdarlıq sistemində göstərilən bəzi xüsusiyyətlər hələ də mövcuddur və açıq-informasiya siyasəti hələ də ümumi deyil.

Müəyyən edilmiş ümumi problemləri aşağıdakı kimi xülasə etmək mümkündür:

**Problemlər**

- Mütəmadi təbii risklər
- Əhali çox çeşidli risklərin öhdəsindən təkbaşına gələ bilmir
- Təbii fəlakətlərin qarşısını almaq və təsirlərini yüngülləşdirmək sahəsində yerli institusional baza və imkanlar zəifdir
- Milli səviyyədə institusional struktur təbii fəlakətlərin qarşısının alınması və təsirlərinin yüngülləşdirilməsi sahəsində yerli idarəetmə bazaları zəifdir
- Fəlakət risklərinin idarə edilməsi istiqamətində cavab tədbirinin həyata keçirilməsi üçün vəziyyət qənaətbəxş deyildir
- Layihədən bəhrələnən şəxslər arasında qeyri-qənaətbəxş əlaqə
- Tələblərə cavab verən kommunikasiya strukturlarının çatışmazlığı (həm icmalar arasında, həm də müxtəlif səviyyələrdə)

Mövcud strukturlar və sistemlər nəzərə alınaraq aşağıdakılar qeyd oluna bilər:

**Çatışmazlıqların aradan qaldırılması**

- İctimaiyyətin maarifləndirilməsi və hazırlığı (ictimaiyyətin səfərbərliyi)
- Yerli səviyyədə fəlakət risklərinin idarə edilməsi işinin planlaşdırılması və həyata keçirilməsi
- Xüsusi olaraq torpaq sürüşmələri və sellərə dair münasib erkən xəbərdarlıq sistemlərinə dair biliklər
- Yerli, regional və ölkə miqyasında tələblərə cavab verən kommunikasiya sistemləri

**Əsas problemlər**

Yerli qurumların təbii risklərlə mübarizə aparmaq üçün münasib imkanları və məlumatları yoxdur, onlara dövlət orqanlarının və qurumlarının səmərəli dəstəyi çatışmır.

## *2.2. Məqsəd və nəticələr*

Layihə yerli və ölkə miqyasında bilik və imkanlar sahəsində mövcud çatışmazlıqları aradan qaldırmağı nəzərdə tutur. Risklərlə üzləşən əhali bu risklər barədə və necə hərəkət etmələri barədə məlumatlıdırlar, eyni zamanda səriştəli rəsmi orqanlara arxalana bilərlər. Layihənin məqsədi aşağıdakı kimi identifikasiya olunur: Cənubi Qafqazdakı qurumlar milli İnstitutlarla (təşkilatlarla) təbii riskləri azaltmağa hazırlaşırlar. İlkin göstəricilər regional seminarın nəticəsinə uyğun olaraq müəyyən olunur.

**Layihələrin əldə edəcəyi nəticələr**

Əsas nəticələrin və ümumi fəaliyyətlərin xülasəsi:

**A. Risklərə hazırlıq və onlarının qarşısının alınması üzrə prioritet sahələrdə imkanların artırılması**

A 1. Bütün səviyyədə tədbirlərin görülməsi üçün lazımi biliklər və hazırlığı təmin etmək

A 2. Yerli və regional səviyyələrdə tədbirlər planlarını işləyib hazırlamaq

A 3. Risklərin qarşısının alınması üzrə konkret tədbirlərin həyata keçirilməsinə dəstək vermək

**B. Risklərin qiymətləndirilməsi üçün biliklərin idarə edilməsi**

B 1. Seçilmiş ərazilərdə müəyyən edilmiş risklər üzrə ətraflı qiymətləndirmələr həyata keçirmək (prioritet: daşqın, torpaq sürüşməsi, sel)

B 2. Risklər haqqında yerli bilikləri elmi imkanlarla əlaqələndirmək

B 3. Yaxşı elmi əsasları əldə etməyə yönəldilmiş əməkdaşlıq tədbirlərinə və araşdırmalara dəstək vermək

B 4. İştirak edən aidiyyəti qurumlarla ölkə miqyasında bilik/məlumat mübadiləsi təşkil etmək

**S. Seçilmiş risklərin monitorinqi və xəbərdarlıq**

S 1. Seçilmiş ərazilərdə müəyyən edilmiş risklərin daimi monitorinqini və təhlilini təşkil etmək

S 2. Effektiv xəbərdarlıq planları tərtib etmək

S 3. Xəbərdarlıq vermək

**D. Cavab tədbirləri üçün əlaqə**

D 1. Kommunikasiya sistemi təşkil etmək və onun idarəetmə imkanlarını təkmilləşdirmək

D 2. Yerli və ölkə miqyasında təşkilati strukturları möhkəmləndirmək, məlumat axını və qərarların verilməsi mexanizminin idarə olunmasını təkmilləşdirmək

D 3. Risklərə məruz qalan qruplara anlaşılan xəbərdarlıqları ötürmək

## *2.3. Layihənin Ümumi Konsepsiyası*

Yerli layihələrin risklərlə mübarizə aparmasına imkan yaratmaq üçün regional və ölkə miqyasında işlək mexanizmlərin olması zəruridir. Layihənin əsas diqqət yetirdiyi məqam təbii fəlakətlərə hazırlıq və onların qarşısının alınması sahəsində yerli qurumların ölkə miqyasında digər qurumlarla əməkdaşlığını gücləndirməkdədir. Risklərə hazırlıq nöqteyi-nəzərdən bütün maraqlı tərəflərin həm şaquli, həm də üfüqi inteqrasiyasının zəruri olduğunu göstərən komponentlərdən biri risklərin aradılmasına yönəldilmiş erkən xəbərdarlıq sistemidir. Seçilmiş ərazilərdə yerli, regional və ölkə miqyaslı erkən xəbərdarlıq sistemlərini təkmilləşdirməklə və möhkəmləndirməklə, layihə riskləri hazırlıq və onların qarşısının alınması istiqamətində bir sıra müxtəlif tədbirlərə hazırlıq görmüş olur.

Erkən xəbərdarlıq sistemləri sahəsində ölkə miqyaslı və yerli imkanları möhkəmləndirmək məqsədilə əhatəli proqramlar həyata keçirmək üçün ölkələr arcıdıl inkişafa yönəlmiş reallaşdırıla bilən strategiya qəbul etməlidirlər. Sistemi tətbiq etməyə başlamazdan əvvəl onun bütün aspektlərini işləyib hazırlamağa səy göstərməkdənsə, ilk öncə ən riskli ərazilərdə mövcud strukturlara uyğun olaraq yerli sistemlər təşkil etmək daha məqsədəmüvafiqdir. Bu yolla əldə edilən təcrübə bu işin digər sahələrə də genişləndirilməsi üçün siyasi dəstəyi və resursları canlandıra bilər. Erkən xəbərdarlıq sistemlərinin ardıcıl inkişaf etdirilməsi həmçinin yeni texnologiyaları da tədricən, yəni sistem spesifikasiyalarını inkişaf etdirdikcə tətbiq etməyə imkan verir.

## *2.4. Layihə üzrə regional və hədəf qrupları*

Yuxarıda qeyd olunduğu kimi, layihə üç əsas səviyyədə fəaliyyət göstərəcəkdir: Cənubi Qafqaz, ölkə və yerli rayon səviyyələri. İlk mərhələ üçün aşağıdakı prioritet rayonlar seçilmişdir:

**Layihə rayonları:**

| Birinci mərhələ\| | İkinci mərhələnin potensial genişləndirilməsi |
|---|---|
| Azərbaycan: Şəki-Zaqatala rayonu | Mingəçevir su anbarı, Kür çayı |

**Azərbaycan regionunun seçilməsində məqsəd**

Azərbaycan ərazisi geniş təbii risklərlə xarakterizə olunur. Beynəlxalq statistikaya əsasən baş vermiş fəlakətlərin sayına görə Azərbaycan ən çox təbii risklərə məruz qalmış ölkələr sırasında göstərilir. Seçilmiş Şəki-Zaqatala zonasında (9.000 $km^2$, 900.000 ha) bir çox təbii fəlakətlərə, o cümlədən daşqın, torpaq sürüşməsi, sel, dolu, qar uçqunları və meşə yanğınlarına rast gəlmək olar. Bura həmçinin zəlzələ üçün də yüksək risk zonasıdır. Bu hadisələr hər il yerli iqtisadiyyatda böyük itkilərə səbəb olur.

Daha geniş məlumat Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən veriləcəkdir.

Hədəf qrupu — seçilmiş rayonların fəlakətlərə məruz qalan əhalisidir.

Vasitəçilər yerli orqanlar və təşkilatlardır.

## 2.5. Aparıcı İcraçı Qurumlar və İnstitutlar

**Aparıcı İcraçı Qurum**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi

**Cəlb edilməsi gözlənilən tərəflər**

- Ekologiya və Təbii Sərvətlər Nazirliyi və onun Milli Hidrometeorologiya Departamenti
- Milli Elmlər Akademiyası (Geologiya və Coğrafiya institutları)
- Layihə rayonlarında yerli orqanlar

## 1. Müddət və Gözlənilən Nəticələr

**3.1. Layihələrin müddəti və mərhələləri**

Layihənin müddəti

Gözlənilən ümumi müddət

| | |
|---|---|
| 1. Mərhələ: | 2 il (06/2007-05/2009) |
| 2. Mərhələ (potensial olaraq) | 3 il (01/2010-12/2011) |

Birgə qiymətləndirmə bir il yarımdan sonra olacaqdır. Əlavə mərhələlər barədə qərarlar müvafiq nəticədən asılıdır.

**2. Almaniya tərəfinin Layihəyə töhfəsi:**

- Beynəlxalq mütəxəssislərin cəlb olunması
- Yerli mütəxəssislərin cəlb olunması
- Məsləhətçilər və araşdırmaçılar
- Malların, avadanlıqların və yerli subsidiyaların təmin olunması, habelə əlavə kommunikasiya avadanlıqlarının təmin edilməsi
- Seminarların, təlimlərin, habelə ölkə, region və beynəlxalq miqyasda konfransların keçirilməsi

**3.3. Tərəfdaşların Layihəyə Töhfəsi**

- Texniki kadrlar
- İnzibati dəstək və ofis
- Mallar və avadanlıqlar
- Bütün əlaqədar məlumatların təmin edilməsi
- Ölkənin müvafiq qurumları ilə əlaqələndirmə

- Layihə rayonlarında razılaşdırılmış prioritetlərə uyğun olaraq ərazi investisiyalarını istiqamətləndirmək

## 4. Digər tədbirlər

Razılaşdırılmış bu Anlaşma Memorandumu əsasında missiya BMZ (Almaniya İqtisadi İnkişaf və Əməkdaşlıq Nazirliyi) üçün layihənin ilkin variantını hazırlayacaq və qiymətləndirmə hesabatı tərtib edəcəkdir.

## Yekun fəsil

Aşağıda imzaları qeyd olunan tərəflər bu sənəddə əks olunan məlumatlar və tövsiyələrlə razılaşdıqlarını bəyan edirlər.

Bundan əlavə, aşağıda imza edən Tərəflər Qiymətləndirmə Missiyası zamanı, habelə 28 noyabr 2006-cı il tarixində Tiflis şəhərində (Gürcüstan) keçirilmiş regional planlaşdırma və konsensus seminarında müzakirə edildiyi kimi Qafqaz Təşəbbüsü çərçivəsində yeni «Cənubi Qafqazda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınması» layihəsi üzrə layihə konsepsiyası barədə razılığa gəlirlər. Bu regional layihə Azərbaycan və Almaniya arasında ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edir.

Bu müddəalara əsasən «Deutche Gesellschaft fur Technische Zusammenarbeyt» GTZ GmbH təşkilatı inkişaf sahəsində Əməkdaşlıq üzrə Almaniya Federal Nazirliyi tərəfindən nəzərdən keçiriləcək və təsdiq ediləcək layihə təklifini hazırlayacaqdır.

## Qüvvəyə minmə və xitam verilmə

Hazırki Memorandum qeyri-müəyyən müddətə bağlanılır və imzalandığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri memorandumu ləğv etmək niyyəti barədə digər tərəfi diplomatik kanallar vasitəsilə yazılı şəkildə xəbərdar etməklə Memoranduma xitam verə bilər. Memorandum belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvədə düşmüş hesab edilir.

Hazırki Memorandum 06 aprel 2007-ci il tarixində, Bakı şəhərində iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində olmaqla imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir.

***Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi adından***
***Nazir***
***Kəmaləddin HEYDƏROV***

***Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti adından***
***GTZ Bakı ofisinin direktoru***
***Dr.Franz HEİNZMANN***